

# STİVEN HOKİNQİN

## QEYRİ-ADİ HƏYATI

Tərcüməçi: Uraynat Mahmudova

qanun nəşriyyatı



THE EXTRAORDINARY LIFE OF

# STEPHEN HAWKING

# STİVEN HOKİNQİN

## QEYRİ-ADİ HƏYATI



Müəllif: Keyt Skot

İllüstrasiyalar: Ester Mols


Stiven Hoking
KİMDİR?




21 yaşı tamam olduqdan sonra çox keçməmiş Stiven Hokinqə demişdilər ki, nadir bir xəstəliyi var və çox az ömrü qalıb. Ancaq bu hadisədən sonra o *55* il yaşadı! Dövrümüzün ən çox hörmət sahibi olan və ən məşhur *alimlərindən, mütəfəkkirlərindən* birinə çevrildi. O, eyni zamanda, *milyonlarla* insana ilham mənbəyi oldu. Hər kəsə sübut etdi ki, əlillik həyatda *gözəl şeylərə* nail olmaq üçün maneə deyil.




# Stiven Hokinq

8 yanvar 1942-ci ildə Oksfordda dünyaya gəlib.

O, Oksford Universitetində bakalavr dərəcəsini bitirdikdən sonra təhsilini Kembric Universitetində davam etdirib. Stiven Hokinq *“Kainat necə yarandı?”* kimi bir çox çətin suallara cavab *axtaran* bir alim idi. O, həqiqətən də, çətin işlərdən zövq alırdı.



Stivenin vəziyyəti orqanizminin zaman irəlilədikcə zəifləməyinə gətirib çıxarsa da, o, zehnini *güclü saxlayaraq* həyatının sonuna qədər işləməyə davam etdi. 1985-ci ildə danışmaq qabiliyyətini itirəndə bir kompüter proqramçısı onun özünü ifadə etməsinə kömək edəcək xüsusi *nitq cihazı* yaratdı. Stiven yanağındakı əzələ ilə bu cihazı idarə edirdi, çünki o nə danışmaq üçün ağzından, nə də yazmaq üçün əllərindən istifadə edə bilirdi.




**BILIRSINIZMI?**
Stiven 2007-ci ildə Kennedi Kosmik Mərkəzini ziyarət edəndə orada qravitasiyasız şəraitdə uçmaq təcrübəsini yaşamışdı.

Həyatının çox hissəsini Stiven *əlil arabasında* keçirib, işi və məşhurluğu isə ona *bütün dünyanı* gəzdirib.